# Sivilizasiyaların dialoqundan süni intellekt zirvəsinə:

## Azərbaycan-Çin əlaqələrinin geniş spektri

*Beynəlxalq Sivilizasiyalararası Dialoq Gününün təsis edilməsi və BMT Baş Assambleyasının müvafiq qətnaməsinin Azərbaycan da daxil olmaqla 83 ölkə tərəfindən imzalanması sivilizasiyalararası dialoqun təşviqi və bəşəri tərəqqi istiqamətində ümumi iradəni nümayiş etdirir. Bu fonda Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələr həm ikitərəfli, həm də çoxtərəfli platformalarda dərinləşərək əməkdaşlığın yeni üfüqlərini açır.*



2023-cü ilin martında Çin Sədri Si Cinpin tərəfindən irəli sürülən Qlobal Sivilizasiya Təşəbbüsü dünya sivilizasiyalarının müxtəlifliyinə hörmət, ümumbəşəri dəyərlərin təşviqi, qorunması, innovasiyaların dəstəklənməsi, eləcə də beynəlxalq humanitar mübadilə və əməkdaşlığın gücləndirilməsi kimi fundamental prinsiplərə əsaslanır. Azərbaycanın bu təşəbbüsü fəal şəkildə dəstəkləməsi və Çinin BMT-də irəli sürdüyü "Beynəlxalq Sivilizasiyalararası Dialoq Gününün elan edilməsi haqqında" qətnaməni yüksək qiymətləndirməsi iki ölkənin ortaq mövqe bölüşdüyünü göstərir. Pekin eyni zamanda, Azərbaycanın "Bakı Prosesi" və onun çərçivəsində keçirilən ümumdünya forumlarını mədəniyyətlərarası dialoqun təşviqi üçün mühüm qlobal platforma kimi dəstəkləyir. Bu qarşılıqlı dəstək sivilizasiya mübadiləsinin maneələri aşdığını, qarşılıqlı zənginləşmənin münaqişələri üstələdiyini və birgəyaşayışın hər hansı bir sivilizasiyanın üstünlüyü iddiasından daha önəmli olduğunu təsdiqləyir.

Bu ilin aprel ayında Çin Sədri Si Cinpin və Azərbaycan Prezidenti İlham Əliyevin "Hərtərəfli strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" imzalaması ikitərəfli münasibətlərdə yeni tarixi səhifə açmışdır. Dövlət başçılarının rəhbərliyi Çin-Azərbaycan əlaqələrinin yüksək keyfiyyətli inkişafının əsas təminatçısı kimi vurğulanır. Son dövrlərdə Azərbaycanın Baş naziri, parlament spikeri, Baş nazirin müavini, xarici işlər naziri, Prezidentin köməkçisi, hakim Yeni Azərbaycan Partiyasının (YAP) rəhbərliyi və digər yüksək vəzifəli şəxslərlə Çin nümayəndələri arasında keçirilən çoxsaylı görüşlər, habelə Prezidentin köməkçisi Anar Ələkbərovun, elm və təhsil naziri Emin Əmrullayevin Çinə, Quandonq və Cianqsu kimi iqtisadi cəhətdən inkişaf etmiş Çin regionlarından nümayəndə heyətlərinin Azərbaycana səfərləri siyasi dialoqun intensivliyini göstərir. Hakim partiyalar arasında da əməkdaşlıq dərinləşir. Çin Kommunist Partiyasının nümayəndəsinin Şuşada təşkil ediləcək Beynəlxalq Partiyalararası Konfransda iştirakı bu əməkdaşlığın bir nümunəsidir.

İkitərəfli praqmatik əməkdaşlıqla yüksələn xətlə inkişaf edir. Cari ilin ilk dörd ayında ikitərəfli ticarət dövriyyəsi təxminən 37 faiz artaraq 1,4 milyard ABŞ dollarına çatıb. Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşı və ikinci ən böyük idxal mənbəyi kimi mövqeyini möhkəmləndirib. Çin tərəfi Azərbaycan məhsullarının Çin elektron ticarət platformaları vasitəsilə satışının genişləndirilməsini alqışlayır və hər iki ölkənin müvafiq qurumları yaşıl enerji, rəqəmsal iqtisadiyyat və infrastruktur kimi sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün yeni addımlar atır.





Humanitar sahədə də əməkdaşlıq genişlənir. Mədəniyyət müəssisələri, analitik mərkəzlər, universitetlər və KİV arasında fəal mübadilələr həyata keçirilir. Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədovun Pekin Xarici Dillər Universitetində Azərbaycan dilini öyrənən tələbə və müəllimlərlə görüşü, Azərbaycan Media İnkişafı Agentliyinin rəhbərliyinin və aparıcı KİV nümayəndələrinin Çinə planlaşdırılan səfəri bu sahədəki canlanmanın göstəricisidir. Bu ilin yanvar-aprel aylarında Azərbaycana gələn çinli turistlərin sayının ötən ilin eyni dövrü ilə müqayisədə 70 faiz artması və qarşılıqlı vizasız rejim sazişii turizm axınının daha da güclənəcəyinə işarə edir.

Sürətlə inkişaf edən süni intellekt (Sİ) texnologiyaları bəşəriyyət üçün misilsiz imkanlar yaratmaqla yanaşı, qlobal idarəetmənin də mühüm gündəminə çevrilib. Çin Sİ sahəsində beynəlxalq idarəetmə və əməkdaşlığın gücləndirilməsini, bu texnologiyanın bütün bəşəriyyətin rifahına xidmət etməsini və potensial risklərin qarşısının alınmasını dəstəkləyir. 2023-cü ildə Sədr Si Cinpin tərəfindən təklif edilən "Süni İntellektin Qlobal İdarəedilməsi üzrə Təşəbbüs" insan mərkəzli yanaşmanı, nəzarət edilə bilən və etibarlı Sİ sistemlərinin yaradılmasını, inkişaf etməkdə olan ölkələrin bu sahədə hüquq və imkan bərabərliyinin təmin edilməsini vurğulayır.

Azərbaycanın Çinin BMT Baş Assambleyasında irəli sürdüyü "Süni intellekt sahəsində potensialın artırılması üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsi" qətnaməsini dəstəkləməsi və bu sahədə yaradılan "Dostlar Qrupu"na ilk qoşulan ölkələrdən olması xüsusi əhəmiyyət kəsb edir. Çin artıq iki dəfə Azərbaycan rəsmilərini süni intellekt sahəsində potensialın artırılması üzrə seminarlarda iştirak etmək üçün Çinə dəvət etmişdir. O cümlədən Azərbaycan üçün qlobal Cənub ölkələrinin potensialının gücləndirilməsi, rəqəmsal və intellektual uçurumların aradan qaldırılması və siyasət təcrübəsinin mübadiləsi, texniki dəstək, maliyyə yardımı, kadr hazırlığı və birgə tədqiqatlar vasitəsilə parlaq rəqəmsal və intellektual gələcəyə birgə hərəkət etmək səylərini dəstəkləməyə davam edəcək.

Çin və Azərbaycan dövlət başçıları müəyyənləşdirdikləri strateji kursu rəhbər tutaraq qarşılıqlı faydalı əməkdaşlığı dərinləşdirmək və ikitərəfli münasibətlərin məzmununu zənginləşdirmək əzmindədirlər.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**